

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 22 (20.923)

5 fevral 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ), Jak Foru (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Niderland Krallığının xarici işlər naziri Frans Timmermansın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Niderland Krallığı arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev bu yaxınlarda Davosda Niderlandın Baş naziri Mark Rutte ilə görüşünü və söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı məsələlər ətrafında səmərəli müzakirələr apardığını məmnunluqla xatırladı. Dövlətimizin başçısı Niderland Krallığının xarici işlər naziri Frans Timmermansın ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Niderland Krallığının xarici işlər naziri Frans Timmermans ölkəsinin Azərbaycan ilə əlaqələri siyasi, iqtisadi və digər sahələrdə daha da genişləndirməkdə maraqlı olduğunu dedi. Frans Timmermans əlaqələrimizin inkişafında qarşılıqlı səfərlərin önəmini qeyd etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən informasiya-kommunikasiya texnologiyaları, infrastruktur, təhsil, birgə layihələr və digər sahələrdə inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclası keçirilmişdir



*İclasda 2013-cü ildə muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunmuşdur.*

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov 2013-cü ildə muxtar respublika məhkəmələri tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi, insan hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat vermişdir.

Bildirilmişdir ki, əvvəlki illərdə olduğu kimi, 2013-cü ildə də Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasir standartlar səviyyəsində qurulması, eləcə də onların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmış, məhkəmələrin fəaliyyətində yeni informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiq edilməsi ilə bağlı bir sıra işlər görülmüşdür. Qanunvericilik bazasının mütəmadi olaraq təkmilləşdirilməsi, məhkəmə orqanlarının yeni informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunması məhkəmə sisteminin daha da müasirləşməsinə səbəb olmaqla yanaşı, ədalət mühakiməsinin tam, obyektiv və qərəzsiz aparılmasına, məhkəmə nöqsanlarının və işlərə baxılmasında gecikdirilmə hallarının aradan qaldırılmasına, məhkəmə qərarlarının vaxtında icra olunmasına, məhkəmə müdafiəsi hüququnun daha möhkəm şəkildə təmin olunmasına şərait yaratmışdır.

Ali Məhkəmənin sədri qeyd etmişdir ki, 2013-cü il ərzində Ali Məhkəməyə daxil olan ərizə və şikayətlərə vaxtında baxılmış, nəticələr barədə vətəndaşlara qanunla müəyyən olunmuş qaydada cavablar verilmiş, müraciət etmiş vətəndaşların şikayətləri araşdırılıb həll edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi 2013-cü il ərzində hakimlərin peşə bacarıqlarının artırılması, onların hüquqi biliklərinin daha da möhkəmləndirilməsi istiqamətində, eləcə də milli qanunvericiliyə edilən əlavələr və dəyişikliklər barədə müntəzəm olaraq muxtar respublikada yaşayan əhali arasında hüquqi təbliğat və izahat işləri aparılması sahəsində bir sıra tədbirlər həyata keçirmişdir.

Ramiz Süleymanov çıxışında Ali Məhkəmənin Azərbaycan və ingilis dillərində fəaliyyət göstərən rəsmi internet saytının təkmilləşdirilməsindən və yeni informasiyalarla zənginləşdirilməsindən də bəhs etmişdir.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış, eləcə də şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin 2013-cü ildə gördükləri işlərə dair məlumatları dinlənilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış etmişdir.

2014-cü ilin Naxçıvan Muxtar Respublikasında "Muxtariyyət ili" elan olunduğunu bildirən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov iclasa yekun vuraraq qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi öz fəaliyyətini bundan sonra da qanunvericiliyin tələbləri səviyyəsində quraraq ədalət mühakiməsini obyektiv, tam və qərəzsiz şəkildə həyata keçirəcək, vətəndaşların hüquqi maarifləndirilməsi işinin daha da gücləndirilməsi və əhalinin hüquq xidmətlərinə olan tələbatının ödənilməsi, vətəndaşların şikayətlərinin araşdırılması, səyyar məhkəmə iclaslarının keçirilməsinə diqqətin artırılması, kargüzarlıq işinin qanunvericiliyin tələblərinə uyğun formada təşkili üçün səylərini davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

## Görülən işlər təhlil edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib

*Fevralın 4-də Naxçıvan Müəllimlər İnstitutunda 2013-cü ilin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə dair yığıncaq keçirilmişdir.*

Yığıncağı giriş sözü ilə institutun rektoru, professor Oruc Həsənli açaraq bildirmişdir ki, yanvarın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilmiş müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov sosial-iqtisadi sahədə əldə edilən bir sıra nailiyyətlərlə yanaşı, ötən il işdə buraxılmış nöqsanlara da toxunmuşdur. Ali təhsil müəssisələrinin də işinə münasibət bildirən muxtar respublika rəhbəri bildirmişdir ki, ali və orta ixtisas təhsili məktəblərində müəllimlərin dərslərə hazırlıq səviyyəsinin aşağı olması, dərs prosesində informasiya-kommunikasiya texnologiyalarından lazımi qaydada istifadə edilməməsi, dərslərdə əyaniliyin təmin olunmaması, təcrübi məşğələlərin formal xarakter daşıması kadr hazırlığına mənfi təsir göstərir.

Bu göstərilənləri əsas götürərək biz də öz işimizə yenidən nəzər yetirməli, seminar və təcrübi məşğələlərin keyfiyyətinin yüksəldilməsi üçün mövzulara uyğun olaraq elektron lövhələrdən istifadəyə daha geniş yer verməli, məzmunlu slaydların hazırlanmasına və tədris prosesində tələbələrə təqdim edilməsinə çalışmalıyıq. Eyni zamanda məşğələlər zamanı tələbələrlə aktuallıq kəsb edən məsələlərə dair fikir mübadiləsi aparılmalıdır.



"Dostluq əlaqələrinə malik olduğumuz xarici ölkə universitetləri ilə internet üzərindən onlayn bağlantı qurmaq təcrübəmiz də vardır", – deyən rektor bildirmişdir ki, bu işi müntəzəm həyata keçirməliyik.

Tədbirdə çıxış edən institutun tədris işləri üzrə prorektoru, professor Akif İmanlı tədris prosesindəki mövcud vəziyyət haqqında, Xarici əlaqələr şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Həsənəli Eyvazlı xarici ölkə ali məktəbləri ilə yaradılan qarşılıqlı əlaqələrdən, Pedaqoji fakültənin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Azad Novruzov tələbələr tərəfindən sərbəst işlərin işlənmə vəziyyətindən və bu işlərin qiymətləndirilməsində müşahidə olunan çatışmazlıqlardan danışmışlar.

Yığıncağa yekun vuran institut rektoru, professor Oruc Həsənli mövcud nöqsanların aradan qaldırılması istiqamətində əməli tədbirlər görülməsinin zəruriliyini vurğulamışdır.

*Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada 2013-cü ilin yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilib.*

## Ötən ilə yekun vurulub



Yığıncağı komissiyanın sədri Etibar Musayev açaraq bildirib ki, 2013-cü il komissiyanın fəaliyyətində bir sıra yeniliklərlə yadda qalıb. Belə ki, ötən il komissiyanın kompüter sistemi yenidən qurulub, test imtahanlarının keçirilməsi üçün yeni proqram təminatından istifadə edilib, müsabiqələrdə şəffaflığın tam təmin edilməsi üçün burada yeni texniki qurğular quraşdırılıb. Sözsüz ki, bu yeniliklər komissiyanın fəaliyyətinə müsbət təsir göstərib.

Bildirilib ki, ümumilikdə, 2013-cü il ərzində vakant inzibati vəzifələrin tutulması üçün 2 müsabiqə keçirilib. Müsabiqəyə çıxarılan 380 vakant vəzifə üzrə 589 namizəd sənəd təqdim edib, onlardan 168 nəfəri test imtahanından müvəffəqiyyətlə keçərək müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb. Müsahibə mərhələsinə sənəd təqdim edən 154 nəfərdən 78 nəfəri vəzifəyə uyğun hesab edilib. Onlardan 72 nəfəri vəzifəyə təyin olunub. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin müraciəti əsasında 2013-cü il 24-25 iyun tarixlərində daxili işlər orqanlarında vakant vəzifələrin tutulması üçün test imtahanı keçirilib, imtahanda 78 nəfər iştirak edib, 13 nəfər 65 və daha çox bal toplayıb. 4 dekabr 2013-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının vergi orqanlarında mövcud olan vakant vəzifələrin tutulması üçün test imtahanı keçirilib, imtahanda 22 nəfər iştirak edib, onlardan 8 nəfəri 65 və daha çox bal toplaya bilib.

Komissiya sədri məruzəsində onu da qeyd edib ki, bəhs olunan dövrdə dövlət qulluqçularının reyestrinin aparılması işi davam etdirilib, daxil olmuş yeni məlumatlar elektron bazaya işlənib. Dövlət qulluqçularının reyestrinin aparılması zamanı bəzi dövlət orqanlarının qəbul etdiyi qərarlarda qanunvericiliyin tələblərinin pozulduğu aşkar edilib və həmin dövlət orqanlarına məktub göndərilərək qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunlaşdırılması tövsiyə olunub. Dövlət orqanlarından komissiyaya daxil olmuş məlumatlar əsasında müəyyən edilib ki, ötən il ərzində dövlət orqanları üzrə 391 nəfər dövlət qulluqçusuna yeni ixtisas dərəcəsi verilib, 20 nəfər intizam tənbehi alıb. Ötən il komissiyaya 27, o cümlədən 26 elektron müraciət daxil olub. Bütün müraciətlər vaxtında cavablandırılıb.

Komissiya tərəfindən elektron xidmətlərin göstərilməsi və komissiyanın fəaliyyətində obyektivliyin və şəffaflığın artırılması məqsədilə bir sıra tədbirlər həyata keçirilib, komissiya əməkdaşlarının peşə hazırlığının artırılması istiqamətində işlər davam etdirilib.

İşdə buraxılan nöqsanlara da toxunan komissiya sədri vurğulayıb ki, 2013-cü ildə dövlət orqanlarının kadr qurumları ilə seminarlar keçirilməyib. Bu da dövlət qulluqçularının məlumat bazasının tam və düzgün şəkildə işlənməsində çatışmazlıqların yaranmasına səbəb olub. Dövlət qulluqçuları ilə "Etik davranış qaydaları"na həsr olunmuş seminarların keçirilməməsi bu sahədə işin lazımi səviyyədə qurulmasına imkan verməyib. Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə komissiyaya verilən tapşırıqlardan biri də dövlət qulluqçularının məlumat bazasının yaradılmasının başa çatdırılması və dövlət qulluğu ilə bağlı normativ-hüquqi aktların tələblərinə riayət edilməsidir. Bu sahədə komissiya üzərinə düşən vəzifələrin vaxtında icrasına nail olmalı və komissiyanın hər bir əməkdaşı qarşıda duran vəzifələrin vaxtında və yüksək səviyyədə yerinə yetirilməsinə səy göstərməlidir.

**Səbuhi HÜSEYNOV**

# 2013-cü ilin yekunları müzakirə edilir



Fevralın 4-də Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində 2013-cü ilin yekunlarına həsr olunmuş kollegiya iclası keçirilmişdir. İclasda komitə sədri Malik Rzayev çıxış edərək bildirmişdir ki, qəbul edilmiş dövlət proqramlarında, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiya və müşavirələrində verilmiş tapşırıqların və qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində ötən il Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən bir sıra tədbirlər reallaşdırılmışdır. “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın müvafiq bəndlərinin icrasını təmin etmək məqsədilə pestisidlərin dövriyyəsinin bütün mərhələlərində onların keyfiyyətinə və tətbiqinə dövlət nəzarətinin gücləndirilməsi üçün kənd təsərrüfatında istifadəsinə icazə verilən təbii və qeyri-təbii vasitələrin tətbiqinə nəzarət və maarifləndirmə işləri həyata keçirilmişdir. “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın müvafiq bəndlərinin icrası hesabat ilində təmin edilmiş, 5 müəssisədə istehsal olunan 14 adda məhsulların etiket layihələri texniki normativ-hüquqi aktlara uyğun olaraq hazırlanmışdır. Meyvə-tərəvəz istehsal edən 2 müəssisənin özünəməxsus əmtəə (xidmət) nişanının qeydiyyata alınması təmin olunmuşdur. “2011-2013-cü illər üzrə Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların ixracının stimullaşdırılmasına dair Tədbirlər Planı”nın icrası ilə əlaqədar ixracyönümlü müəssisələrdə müasir standartlara uyğun şəraitin yaradılması və istehsal prosesinin qabaqcıl texnologiyalar əsasında təşkili məqsədilə idxal olunan 50 avadanlıq sertifikatlaşdırılmış, regional standartların tətbiqi məqsədilə 508 ədədinə dövlətlərarası, 4669 ədədinə beynəlxalq standartlara uyğun olaraq sertifikat verilmişdir. İxracqabiliyyətli məhsullara dair hazırlanmış 12 texniki şərt standartlar fondunda qeydiyyata alınmışdır.

Bildirilmişdir ki, idxal olunan malların etiketlərində istehlakçılar üçün məlumatların olmasına nəzarət edilməsi, geni dəyişdirilmiş məhsulların, eləcə də süni ət məhsullarının muxtar respublikaya idxalının və satışının qarşısının alınması üçün topdansatış obyektləri rəhbərlərinin iştiraki ilə maarifləndirici yığıncaq keçirilmişdir. 23 istehsal müəssisəsində 179 adda çəkilib (ölçülüb) qablaşdırılmış mallar üzərində dövlət metroloji nəzarəti aparılmışdır.

Qeyd olunmuşdur ki, 816 ədədi ərzaq, 5 min 62 ədədi qeyri-ərzaq məhsulu olmaqla, 5 min 878 ədəd uyğunluq sertifikatı verilmişdir. 127 istehsal müəssisəsinə istehsal etdiyi sabit keyfiyyətli 211 adda məhsulu AZS Milli Uyğunluq Nişanı ilə nişanlamaq hüququ verilmişdir.

“1163 təsərrüfat subyektində 30 min 122 ədəd ölçmə vasitəsi müqayisəli yoxlamadan keçirilmişdir”, – deyən komitə sədri əlavə etmişdir ki, 7 min 276 ədəd ölçmə vasitəsi üzərində dövlət nəzarəti aparılmışdır. Ötən il istehsal, xidmət və ticarət obyektlərində 51 ədəd müasir elektron tərəzi quraşdırılmış, 2 min 459 ədəd elektron elektrik sayğacı, 3 min 890 ədəd qaz sayğacı, 10 min 45 ədəd su sayğacı müqayisəli yoxlamadan keçirilmişdir. Üç elektron elektrik sayğacının sınaqları aparılmış, onların tipi təsdiq edilərək dövlət reyestrində qeydiyyata alınmışdır.

Vurğulanmışdır ki, ixtira, faydalı model, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilərin mühafizəsi sahəsində daxil olmuş 236 müraciətin ekspertizası aparılmışdır. Fərqləndirici əmtəə (xidmət) nişanlarının tətbiqi ilə əlaqədar 90 təsərrüfat subyektində özünəməxsus nişanların vurulması təmin edilmişdir.

Tədbirdə nöqsanlara da toxunulmuş və həmin nöqsanların aradan qaldırılması yolları müzakirə edilmiş, səmərələşdirici təkliflər irəli sürülmüşdür.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Kollegiya iclasına komitə sədri Malik Rzayev yekun vurmuşdur.

✍ **Səbuhi HƏSƏNOV**

Dünən Ordubad Rayon İcra Hakimiyyətində 2013-cü ilin yekunları, 2014-cü ildə qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirəni icra başçısı Elşad Məmmədov açaraq geniş məruzə ilə çıxış edib. Bildirilib ki, 2013-cü ildə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş investisiyanın 51238,8 min manatından tikinti-quraşdırma işlərində istifadə olunub. Bu da əvvəlki illə müqayisədə 5,5 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Ordubad Rayon Şöbəsinin inzibati binasının, “Gəmiqaya” Tarix-Bədii Qoruğu və muzey üçün binanın, Ordubad şəhərində 242 yerlik uşaq bağçası, Sabirkənddə 378 şagird yerlik, Xurs kəndində 110 şagird yerlik, Nəsirvaz kəndində 88 şagird yerlik tam orta məktəb binalarının, Əlahi kəndində 88 şagird yerlik ümumi orta məktəb binasının, Bist kəndində həkim ambulatoriyası binasının, Nəsirvaz, Əlahi və Xurs kəndlərində kənd mərkəzlərinin və feldşer-mama məntəqələrinin, Nürgüt kəndində feldşer-mama məntəqəsinin tikintisi ilin başa çatan quruculuq tədbirləri sırasındadır.

Bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsinin inzibati binası, Bist və Nürgüt kəndlərində tam orta məktəb binaları yenidən qurulub.

Qeyd olunub ki, rayonda sahibkarlıq fəaliyyətinə yaradılan şərait hesabına son illər emal və istehsal sahələrinin sayı xeyli artıb. Bu cəhətdən 2013-cü il də istisna deyil. Belə ki, həmin dövrdə Ordubad şəhərində meyvə-tərəvəz qurudulması, Vənənd kəndində müxtəlif meyvələrdən mürəbbə, Biləv kəndində çörək istehsalı sahələrində, Yuxarı Əndəmic kəndində iki, Aza və Vənənd kəndlərinin hər birində bir istixana kompleksində işlər başa çatdırılıb. Ordubad “Quşçuluq” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin genişləndirilməsi istiqamətində tədbirlər görülüb.

Ordubad Su Elektrik Stansiyasının, Ordubad şəhərində istixana kompleksinin, Aza kəndində elektrik açarları və müxtəlif meyvələrdən kompot istehsalı sahələrinin, Aşağı Əylis kəndində heyvandarlıq, Üstüpü kəndində arıçılıq təsərrüfatlarının yaradılması işləri davam etdirilib.

Nəqliyyat sahəsi də diqqətdən kənarda qalmayıb. Rayon ərazisində üç körpünün, Gənzə kəndində avtomobil yolunda istinad divarının tikintisi, Biləv-Xurs-Nəsirvaz və Düylün-Çənnəb-Məzrə avtomobil yollarının təmiri başa çatdırılıb.

Əhalinin elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaq məqsədilə 110/35/10 kilovoltluq “Ordubad” elektrik yarımstansiyasının tikintisi və avadanlıqlarla təchiz edilməsi işləri yekunlaşdırılıb.

İcra başçısı bildirib ki, rayonda heyvandarlığın, kənd təsərrüfatının, sənayenin inkişafında yüksək nəticələr qazanılıb. “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın həyata keçirilməsi ilə bağlı Ordubad rayonu üzrə limon istixanalarının yaradılması üçün 3 nəfərə 56000 manat, 111 torpaq mülkiyyətçisinə 104600 manat miqdarında kredit verilib.

Vurğulanıb ki, ekoloji tarazlığın qorunması da diqqətdə saxlanılıb, il ərzində rayonun müxtəlif ərazilərinə 12760 ədəd meyvə ağacı, 4290 ədəd meşə ağacı, 410 ədəd həmişəyaşıl ağac olmaqla, cəmi 19120 ədəd ting əkilib. 10 hektar yeni meyvə bağı salınıb, 6 hektar sahədə bərpa işləri aparılıb.

Müşavirədə işdə buraxılan nöqsanların aradan qaldırılması və qarşıda duran vəzifələr barədə aidiyyəti orqanlara müvafiq tapşırıqlar verilib.

Məruzə ətrafında rayon Maliyyə Şöbəsinin müdiri Bəxtiyar Əsgərovun, Vergilər Şöbəsinin rəisi Məhəmməd İbadovun, Dövlət Sosial Müdafiə Fondu Ordubad Rayon Şöbəsinin müdiri Bayram Yusifovun çıxışları olub.

✍ **Muxtar MƏMMƏDOV**

*Muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi və reabilitasiyası üzrə həyata keçirilən tədbirlər onların cəmiyyətə inteqrasiyası və təhsil almaları üçün əlverişli mühit yaratmışdır.*

# Dövlət proqramının icrası ilə əlaqədar komissiya yaradılıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” bu kateqoriyadan olan uşaqlara göstərilən diqqət və qayğının ifadəsidir.

Proqramın qəbul edilməsində əsas məqsəd muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla bərabər təhsil hüququnun təmin edilməsidir. Proqramın icrası nəticəsində sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi sistemli xarakter alacaq, inklüziv və məsafədən (distant) təhsilə keçid üçün əsaslı zəmin yaranacaq, bu kateqoriyadan olan uşaqların təhsilinin keyfiyyəti yüksələcək və bu sahədə müvafiq pedaqoji kadr hazırlığı təkmilləşəcək. Bunun üçün dövlət proqramında sağlamlıq imkanları məhdud uşaqların məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlb edilməsi istiqamətində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Cari ilin yanvar ayı ərzində sözügedən dövlət proqramında göstərilən müddəaların həyata keçirilməsi istiqamətində bir sıra işlər görülüb. Belə ki, məktəbəqədər yaşlı, əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən və hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən sağlamlıq imkanları məhdud uşaqlar barəsində məlumat bazası yaradılıb. Hazırda sağlamlıq imkanları məhdud 40 nəfər uşaq məktəbəqədər təhsil müəssisəsinə gedir, 843 nəfər uşaq isə ümumtəhsil müəssisələrində təhsil alır.

Hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilməyən uşaqlar üçün Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi yaradılacaqdır. Distant dərslərə cəlb ediləcək hərəkət qabiliyyəti məhdud 19 uşaq müəyyənləşdirilib. Onlar kompüter, skaner və məktəbli ləvazimatları ilə təmin olunacaqlar.

Mərkəzdə eşitmə məhdudiyyəti olan sağlamlıq imkanları məhdud 7 uşaqla daktilo əlifbası üzrə distant dərslər davam etdirilir. Daktilo əlifbası üzrə tədrisə cəlb edilən eşitmə məhdudiyyətli uşaqlar xüsusi dərs vəsaiti ilə təmin ediliblər.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində təşkil edilmiş defektoloji bölmədə mütəxəssislərin iş təcrübəsini artırmaq məqsədilə təlim-məşğələlərin keçirilməsi davam etdirilir. Bölmənin fəaliyyətinin təşkili məqsədilə kadr potensialı artırılıb və təlim otağı elektron lövhə ilə təmin edilib. Hazırda zehni inkişafında, həmçinin nitqində qüsurları olan 10 uşağın reabilitasiyası məqsədilə bölmənin müəllim-defektoloqu tərəfindən təlim-məşğələnin keçirilməsinə başlanılıb.

Sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması məqsədilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində bu kateqoriyadan olan 18 uşağın iştirakı ilə bilik və kinekt oyunları üzrə yarışlar keçirilib. Bundan başqa, ay ərzində sağlamlıq imkanları məhdud 5 uşaq məktəbdənkənar müəssisələrə cəlb edilib.

Məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlarla bağlı yaranan çətinliklərin aradan qaldırılması və bu sahədə görülən işlərə nəzarət etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələrindən ibarət komissiya yaradılıb və onun iş planı təsdiq edilib. Komissiya artıq fəaliyyətə başlayıb. Komissiya üzvləri sağlamlıq imkanları məhdud uşaqların cəlb olunduğu məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrdə uşaqların tədrisdə iştirakına, peşə maraqlarının aşkar edilməsinə, ümumtəhsil müəssisələrində psixoloqlar tərəfindən sağlamlıq imkanları məhdud uşaqlarla fərdi proqram əsasında həyata keçirilən tədbirlərin nəticələrinə dair monitorinqlər, həmçinin sağlamlıq imkanları məhdud uşaqların valideynləri, müəllimləri ilə görüşlər keçiriblər. Komissiya fəaliyyətini davam etdirir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Əmək pensiyalarının sığorta hissəsi artırılıb

Ümummilli lider Heydər Əliyevin 2001-ci il 17 iyul tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası”nın yüksək səviyyədə icra olunması nəticəsində əmək pensiyalarının müntəzəm artırılması, pensiyaların vaxtlı-vaxtında mütərəqqi ödəniş vasitəsi hesab olunan plastik kartlarla ödənişinin həyata keçirilməsi mümkün olmuşdur.

Ölkəmizdə bazar münasibətləri sisteminin bərqərar olması əhalinin sosial müdafiəsi və pensiya təminatı sahəsində köklü dəyişikliklərin həyata keçirilməsini, beynəlxalq təcrübədə özünü doğrultmuş müasir sosial müdafiə sistemlərinin tətbiqini zəruri etmişdir. Hazırda ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə yaşlı və gənc nəslin sosial müdafiəsinin gücləndirilməsi, sağlam mənəvi mühitin yaradılması istiqamətində məqsədyönlü tədbirlər davam etdirilir. Bu tədbirlərdən ən əsası isə yaşa görə əmək pensiyalarının baza hissəsinin və sığorta hissəsinin mütəmadi olaraq artırılmasıdır.

Azərbaycan Respublikası Prezidentinin 27 avqust 2013-cü il tarixli Sərəncamına əsasən, yaşa görə əmək pensiyasının baza hissəsinin məbləği 2013-cü il sentyabrın 1-dən 100 manat müəyyən edilmişdir.

“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 29.2-ci maddəsinə əsasən, əmək pensiyasının sığorta hissəsi, o cümlədən bu qanun qüvvəyə mindiyi günədək qazanılmış əmək pensiyasının sığorta hissəsi və fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində toplanan pensiya kapitalı ildə bir dəfədən az olmamaqla Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun ölkə Prezidentinin müvafiq sərəncamlarına əsasən indeksləşdirilir. İmzalanmış müvafiq sərəncamlara əsasən, əmək pensiyalarının sığorta hissəsi 2007-ci ildə 8,3 faiz, 2008-ci ildə 16,7 faiz, 2009-cu ildə 20,8 faiz, 2010-cu ildə 1,5 faiz, 2011-ci ildə 5,7 faiz, 2012-ci ildə 7,9 faiz, 2013-cü ildə 1,1 faiz indeksləşdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti 2014-cü il 3 fevral tarixdə “Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında” növbəti Sərəncam imzalamışdır ki, bu sərəncama əsasən, 2013-cü il üzrə istehlak qiymətləri indeksinə uyğun olaraq, əmək pensiyalarının sığorta hissəsi və fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində toplanan pensiya kapitalı məbləğlərinin 2014-cü il 1 yanvar tarixdən indeksləşdirilməsi nəzərdə tutulmuşdur.

Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi pensiyanın ümumi məbləğindən baza hissə, yəni 100 manat çıxılmaqla qalan məbləğə 2,4 faiz (2013-cü il üzrə istehlak qiymətləri indeksi) əlavə edilməklə aparılacaqdır.

“Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı dövlət qulluqçuları və hərbi qulluqçular istisna olmaqla, muxtar respublika üzrə 48 min 650 əmək pensiyaçısına və yaxud ümumi əmək pensiyaçılarının 94 faizinə şamil olunacaqdır.

Muxtar respublikamızda əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi ilə əlaqədar ölkə Prezidentinin imzaladığı sərəncamdan irəli gələn vəzifələrin operativ icrası məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən lazımi tədbirlər görülür.

Yuxarıda qeyd edilən kateqoriyadan olan əmək pensiyaçıları istisna olmaqla, bütün növ əmək pensiyaçılarının pensiyalarının sığorta hissəsində fondun rayon (şəhər) şöbələri tərəfindən 2013-cü il üzrə istehlak qiymətləri indeksinə uyğun olaraq 2,4 faiz artım aparılır. Bu proses qısa müddətdə başa çatdırılacaqdır. Əmək pensiyaçıları 2014-cü ilin fevral ayında pensiyalarını artımlarla birlikdə, o cümlədən yanvar ayı üzrə artımlar da daxil olmaqla alacaqlar.

Əmək pensiyalarının sığorta hissəsində müvafiq artımların aparılması ilə yanaşı, fərdi uçot sistemində sığortaolunanların fərdi hesablarında toplanmış pensiya kapitalı məbləğlərinin də 2,4 faiz indeksləşdirilməsi aparılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

***Hörmətli oxucular! 2014-cü ildə ilk səfərim Şahbuz rayonunun Qızıl Qışlaq kəndinə oldu. Yenə yazımın əvvəlində iki yolun ayrıcında qalmışam. O mənada ki, bilmirəm, nədən başlayım: ötən ilin son ayındakı qəzetimizin informasiyasından, yoxsa Qızıl Qışlaq camaatı ilə görüşlərdən, söz-söhbətlərdən. Çünki kənd adamları ilə əl verib görüşən kimi hamı dövlətin qayğısından danışırdı: özü də ürəkdolusu, ürəkaçıqlığı ilə.***

*Kənd görüşləri*

# Yeni dövrünü yaşayan Qızıl Qışlaq



Bir müddət olardı ki, güzarımı bu tərəflərə salmamışdım. Əvvəlcə Şahbuz şəhərini çıxar-çıxmaz Küküçayın üstündən təzə salınmış nəhəng körpü, sonra sol tərəfə uzanan xətlənmiş, işarələnmiş asfalt yol, deyəsən, məni çaşdırdı. Çünki elə buradaca iki maşının güc-bəla ilə qoşa keçə biləcəyi körpü o tərəfdə qalmışdı. Üzü bu istiqamətdəki sonuncu kənd olan Kükü kənd yolunun tozlu-torpaqlı, çala-çuxurlu yolu da görünmürdü. Buradan Qızıl Qışlağa 12 kilometrlik məsafəm qalırdı. Hörmətli oxucu, bu 12 kilometrlik yolun ləzzətini, dadını duymaq üçün, Vallah, dünyanın hansısa qitəsinə, ölkəsinə getməyə dəyməz. Əgər bir dəfə güzarınız bu tərəfə düşsə, buradakı gözəllikdən alacağınız təəssürat ömür boyu bəsinizdir: dağ dolaylarına bəzək vuran əl içi kimi rahat yol, hər iki tərəfdə buludlarla sövdələşən dağ zirvələri, güneyləri yazdan xəbər verən güney yamaclar, yastanlar, alçaqlı-ucalı təpələr, quzeyində kırs bağlayan qarlı qayalar, uçurumlar və bu güneyin, quzeyin qucağı ilə üzüaşağı tələsən Kükü çayı, qış Günəşindən doğub-törəyən irmaq damlalarının bənd aldığı bulaqlar, arınarxayın daşdan-daşa qonan ayağı xınalı kəkliklər...

Deyəsən, təbiət məni məqsədimdən çaşdırmaq istəyir. Amma yox, gəlirəm mətləb üstünə. O mətləb üstünə ki, nə əcəb, əl verib görüşdüyüm hər bir qızıl qışlaqlı onlara göstərilən dövlət qayğısından ürəkdolusu danışırdı? Bu məqamda istərdim dövlətimizin muxtar respublikanın neçə-neçə kəndinə göstərdiyi qayğı kimi, Qızıl Qışlağa da olan qayğısından bir-iki cümlə yazıma əlavə edim: "Qızıl Qışlaqda aparılan quruculuq işləri, çəkilən müasir yol kəndin inkişafının daha bir göstəricisidir. Yol bizim rahatlığımıza xidmət edəcək, mənzil başına tez və rahat çatmağımıza şərait yaradacaqdır". Bu, kənd sakini Fətullah Məmmədovun sözləridir.

Kənddə tam orta məktəbin yeni binası istifadəyə verilmişdir. "Laboratoriyalar, fənn kabinələri, zəngin kitabxana, kompüter otağı, elektron lövhəli siniflər, idman zalı tədrisin yüksək səviyyədə təşkilinə imkan verəcəkdir". Bu da məktəbin direktoru Hafiz Həziyevin fikridir.

Kənd mərkəzinin də açılışı olmuşdur. "Muxtar respublikada həyata keçirilən quruculuq işlərindən Qızıl Qışlaq kəndinə də pay düşmüşdür. Kənd və xidmət mərkəzləri tikilmiş, kənd yolu yenidən qurulmuş, poçt şöbəsi yaradılmışdır". Bu da Qızıl Qışlaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Fariz Göyüşovun açılış mərasimi zamanı dedikləridir. Xülasə, həmin gün, yəni 2013-cü il dekabrın 6-da Şahbuz rayonunun Qızıl Qışlaq kəndində yeni yolun, məktəbin, kənd və xidmət mərkəzlərinin açılışında bu fikirlər səslənmişdir. Amma bu bir neçə cümləlik fikirlərin arxasında görün nələr durur? Əvvəlcə 12 kilometrlik yol, üstəgəl Qızıl Qışlaqdan Güney Qışlağa gedən 4 kilometrdən çox olan daha bir yol, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 110 şagird yerlik məktəb binası. Məktəbdə 11 sinif otağı, fənn kabinələri, laboratoriyalar, kitabxana, kompüter otağı, elektron lövhəli siniflər, idman zalı, bufet vardır. Kənd mərkəzində icra nümayəndəliyi, bələdiyyə, poçt, baytar, polis sahə məntəqələri, həkim ambulatoriyası, mədəniyyət evi fəaliyyət göstərir. Xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat mallarının satışı mağazaları yerləşir. Bütün bunların üstünə gəl kəndin böyük bir hissəsinin abadlığı, yenidən qurulması ilə simasının dəyişməsi. Təbiidir ki, bütün bu qurulanların, yaradılanların istifadəyə verilməsi mərasimində kənd sakinlərini təbrik edən, onlara ilk xeyir-dua verən də muxtar respublikanın rəhbəri cənab Vasif Talıbov oldu: ***"Aparılan kompleks quruculuq işləri Qızıl Qışlaq kəndini muxtar respublikanın abad yaşayış məntəqələri sırasına daxil etmişdir. Bu, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf xəttinin bir kəndin timsalında nümunəsidir. Kəndlərdə aparılan quruculuq işləri, ilk növbədə, insanların rahatlığına hesablanmışdır. Qızıl Qışlaq kəndində istifadəyə verilən yeni sosial obyektlər də kənddə əhalinin rahatlığının təmin olunmasına imkan verəcəkdir. Bu eyni zamanda dövlətimiz tərəfindən insan amilinə verilən qiymətin daha bir ifadəsidir. Bu gün kənddə təhsilin səviyyəsinin yüksəldilməsi üçün yeni məktəb binası, idarəetmə strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi üçün kənd mərkəzi, əhalinin sağlamlığına xidmət göstərəcək həkim ambulatoriyası, eləcə də gündəlik məişət tələbatını ödəyən xidmət mərkəzi də istifadəyə verilir. Ona görə də sakinlər göstərilən dövlət qayğısından səmərəli istifadə etməli, öz təsərrüfatlarını genişləndirməli, tikilənləri, qurulanları qorumalı, bundan sonra da kəndin abadlaşmasında yaxından iştirak etməlidirlər".***

Elə mən də muxtar respublika rəhbərinin qızıl qışlaqlılara olan xeyirduasındakı son cümləni bu yazıma dəstək kimi qəbul edərək kənd adamları ilə görüşə gedirəm. İnsanları ilə görüşməzdən əvvəl öz-özümlə danışıram. Neçə dağın arasına sığıb-sığışmayan bu kəndə nə əcəb "Qışlaq" adı veriblər? Söhbət onun qızıl, yainki gümüşlüyündən getmir. Çünki güzəranları, dolanışıqları maldarlıq, heyvandarlıqla keçənlər, adətən, yayı yaylaqda, yəni dağda, qışı da qışlaqda, yəni aranda olarlar. Amma qışın bu oğlan çağında Qızıl Qışlaqda yaz ab-havasını görəndə aydın oldu ki, atalar, babalar özlərinə yer-yurd seçəndə biliblər ki, harda məskən salmaq lazımdır. Söhbətləşdiyim adamların çoxundan eşitdim ki, Allah bilir, neçə yüz il bundan irəli yeddi qardaş gəlib bu həndəvərdə ocaq qurub, koma salıb, ondan sonra artıb, çoxalıb, törəyiblər və nəhayət ki, bu kənd yaranıb. Qızıl qışlaqlıların hamısı bir-birinə zəncir həlqəsi kimi bənddir, yəni hamısı qohumdur, doğmadır. Niyə, deyim, bilin. Kənddə olan gün kənd adamlarının yolu bir ünvana idi: Kamal Vəliyevin həyətinə səmt. Nədən ki, kişinin oğlu Fərhad Vəliyev ordu sıralarına, yəni əsgərliyə çağırılmışdı. Və belə xoş gündə kənd camaatı Kamala gözaydınlığı verməyə gedirdi. Kamal kişi də, necə deyərlər, bu gün "başını açmışdı", məclis qurmuşdu. Qızıl Qışlaqda bir söhbət də elədilər. Əlbəttə ki, xoş ovqatla bağlı. Burada şəhərdəki kimi qapı-qapı düşüb toy dəvətnaməsi paylamazlar. Kənddə 117 ev var. Hamısında da telefon. Dəstəyi qaldırıb xəbər verirlər, filan gün xeyir işimiz var. Daha saatı, dəqiqəsi, filanı, yainki ünvanı olmaz. Hamı bilər ki, bəli, bu gün istənilən saatda toya getsən, məclis davam eliyəcək, dağ kəndində hər gün toy-düyün olmur, ha.

Deyəsən, qələmim bir az qabağa qaçdı. Çünki Qızıl Qışlağın yaranma tarixini qoyub, toy-düyün məsələsini önə çəkdim. Qızıl Qışlaq Naxçıvan şəhərindən 42 kilometr aralıdadır. Və bu həndəvərdəki sonuncu kənd olan Kükü dağlarından başlanan çay vadisinin hər iki səmtində qərar tutub. Kənd evləri vadi boyu uzandıqca uzanır və bir neçə kilometrlik ərazidə qərar tutub. Üstü ağ kirəmitli evlər sanki ağ göyərçinlər kimi çay sahilinə qonublar və bu "ağ göyərçinlər" yavaş-yavaş dağ döşlərinə də qanad açmağa başlayıblar. Nədən ki, kənddə hər il neçə-neçə cavan ailələr qurulur. İcra nümayəndəliyində mənə bildirdilər ki, Qızıl Qışlaqda 117 ev var, 232 təsərrüfat. Deməli, hələ nə qədər evlər tikiləcək.

Qızıl Qışlaq dəniz səviyyəsindən 1659 metr hündürlükdədir. Bu hündürlüyə görə də camaatın əməkhaqqına dövlət 20 faiz əlavə edib.

Təzəcə istifadəyə verilən kənd mərkəzi camaatın, necə deyərlər, görüş yerinə, bir-birindən hal-əhval tutmaq, xeyir-şərindən xəbər bilmək yerinə çevrilib. Kəndin axar-baxarlı guşəsində qərar tutan bu quruculuq ünvanı Qızıl Qışlağa ayrı bir yaraşıq, ayrı bir görkəm verir. Kəndin insanı ovsunlayan bir mənzərəsi var: qənşərdəki Müsəllə dağı, bir tərəfdə Sarıdağ, Güney dağı, Çuxur dağı, uzaqdan görünən qarlı Kükü dağları, bir az irəlidəki Zırnel dağı, ondan oyana adı, bəhsi bilinməyən, bəlkə də, mənim bilmədiyim uca dağlar, yalçın qayalar...

Üz-gözündən xeyirxahlıq yağan kişi ilə salamlaşıram – Xoş gəlmisən, – deyir. "Nə təhərdi bizim tərəflər, xoşuna gəlir?" Bilmirəm, necə cavab verəm. "Gəlir" demək azdır, "buralar, vallah, cənnətdir", – deyirəm.

Yadımdan çıxmasın deyə, elə buradaca bir-iki cümləni yazıya əlavə edim. Qızıl qışlaqlılar öz yer-yurdlarının qədrini biləndilər. Hər qarışını, hər addımını qiymətləndirəndilər. Kiminlə əl tutub hal-əhvallaşırdımsa, biri suyunu, biri havasını, biri otəncərini, biri almasını, cəvizini, balını, xülasə, kövşənini tərifləyirdi. Mənə elə gəlirdi ki, dünyanın ən gözəl guşəsi elə bu Qızıl Qışlaqdır, vəssalam.

Əl verib görüşdüyüm ağsaqqalla söhbətim yarımçıq qaldı axı. Sinni 80-i haqlamaqda olan Şükür Şükürovla kiçik bir tanışlıq: yaşını dedim. 6 oğlu, 4 qızı var. Uşaqlarının 8-ni oxudub. "Bəs 2-ni niyə oxutmamısan?" sualıma sualla cavab verir: "Hamı qələmdən-kağızdan yapışsa, bəs beldən, kərəntidən, torpaqdan, ağac-budaqdan kim yapışacaq, hə? Oxumuşların çoxu ora-bura dağılışıb, şəhərə üz tutub. Amma söz var, deyərlər, göyərçinlər uzağa uçmur. Hər yayı, yazı ata-ana ocağında keçirirlər. Eh, təki canları sağ olsun. Bu yurd yenə onlarındır. Tək özümüzünküləri demirəm, kim ki buradan pərvazlanıb, gec-tez yenə bura qayıdacaq".

Bir haşiyəyə də çıxım, sonra unudaram, sözüm ürəyimdə qalar. Qızıl Qışlaqda o ev, o həyət olmaz ki, bu dağlarda çağlayan bulaqların suyu ora gəlməsin. Dövlət bütün həyətlərə su çəkib. İndi bir az da kənd adamlarının dolanışığından, gün-güzəranlarından. Onu da deyim ki, indiki zamanda dolanışıqdan giley-güzar eliyən, günahı özündə axtarsın. Əlbəttə ki, söhbət kənddən gedir. Ünvanı da olsun Qızıl Qışlaq.

Kənd adamının 35-40 minik avtomobili var. Hələ başqa kənd təsərrüfatı texnikalarını demirəm. 117 evin 117-də telefonu var. Qaz, su, elektrik – bunlar dağ kəndi üçün adilikdir. Hər gün 3 dəfə Naxçıvan şəhərinə və geriyə avtobus marşrutu işləyir. Bütün bunları eşidib qeyd dəftərçəmə yazandan sonra bir işarə də qoydum. Yəni belə yaşayışı, gün-güzəranı olan kəndli qardaş niyə dövlətin bu qayğısını belə yüksək qiymətləndirməsin? Əgər qiymətləndirməyən varsa, Vallah, bu, çörək itirməkdir, bizim tərəflərdə deyildiyi kimi, çörəyi dizinin üstündə olmaqdır. Və nə yaxşı ki, Qızıl Qışlaqda beləsinə rast gəlmədim.

Kənd icra nümayəndəliyində dedim ki, məni fermer təsərrüfatı olanla tanış edin. Yainki yüksək gün-güzəran sahibinin evinə aparın. Elə özüm yolda, izdə, kənd mərkəzində rastlaşdığım insanlarla söhbətləri yaddaşıma həkk eləyirəm. Yoxsa ki, kəndin, küçənin ortasında qələm-dəftər çıxarıb qeydlər aparmaq jurnalistə fayda gətirməz. Çünki qələm-dəftər görən həmsöhbətin tez özünü yığışdıracaq, necə deyərlər, boğazdan yuxarı danışacaq. Sərvər Həziyevlə də söhbətimiz beləcə baş tutur. Dolanışığını xəbər alıram. İşgücünü, məşğuliyyətini soruşuram.

– Bilirsənmi, qonaq qardaş, bu dağlar, bu dərələr, bulaqlar, indi qarın altında uyuyan torpaqlar heç kəsi ac qoymaz. Bu gün-sabah yaz gələcək: bu bəyaz dağ döşləri, yamaclar minbir rəngə çalan gül-çiçəyə bürünəcək, mal-heyvan, qoyun-quzu bu döşlərə, bu yamaclara səpələnəcək, arı yeşikləri hardan-hara düzüləcək. Ondan sonra ot biçini başlayacaq, bal süzüləcək, quzular, oğlaqlar, toğlular, erkəklər ətə-qana gələcək, badyalar, sərniclər süddən köpüklənib aşıb-daşacaq, qadınlar nehrə çalxalayacaq, ağaclar bara dolacaq. Gərək bu kənddə yaşayasan ki, cah-cəlalımızı görəsən.

Hörmətli oxucular, əgər yazımda eyni soyadlılarla rastlaşsanız, düşünməyin ki, üzgörənlik eləyirəm. Əvvəldə dedim axı, kənddə hamı bir-birinə doğmadır, qohumdur. Azər Şükürov da növbəti həmsöhbətim oldu. Ağzımı açmamış elə bil nə deyəcəyimdən xəbər tutdu.

– Bu güzəranı bizə bəxş eləyən dövlətdi. Dönə-dönə minnətdarıq. O var ki, "Allahdan buyruq, ağzıma quyruq" düşüncəsi ilə yaşamayasan. İşləmək lazımdır. Vallah, billah, işləmək lazımdır. Yoxsa, nə bilim.

Bu "nə bilim"dən sonra əl tutub hal-əhval soruşduğum insanların əllərinin içindəki qabarlar yadıma düşdü. Və əlimdəki qələmin heç bir izi-tozu olmamasından utandım. "Nə bilim"dən sonrakı düşüncələrimdən belə qənaətə gəldim ki, bir az əvvəl yazdığım xoş gün-güzəran göydən düşmür. Yainki yağışdan sonrakı göbələklər də deyil. Bu güzəran hər kəsin öz zəhmətinin bəhrəsidir. Və Azər sadalayanda ki, 10 baş inəyim, 10 balası, 35-40 arı ailəm, az qala bir hektarlıq meyvə bağım var, fikirləşdim, burada heç bir qeyri-adilik yoxdur. Kişilər işləyiblər, barın-bəhrəsin də görürlər. Eyni sözləri İsmayıl Məmmədovdan da eşitdim. "Hələ təzə başlamışam", – dedi. "Gör 2-3 ildən sonra nələrim olacaq. Hələlik 10 baş inəyim, 10 danam, 40 arı ailəm, əlbəttə ki, meyvə bağım var".

Əvvəlki həmsöhbətlərimlə müqayisədə bir qədər diribaş, həm də dildən zirək Hikmət Məmmədovla söhbətimiz uzun çəkdi. Elə hey məni qonaq dəvət eliyirdi. "Evim kəndin lap başlanğıcındadır. Birinci ev mənimdir", – deyirdi. "Sağlığına, əla dolanıram. 100 arı ailəm var, 8 inəyim, 25 qoyun-quzum, 200 meyvə ağacım, toyuq-cücəm; təki kəndin başındakı evim qonaqlı-qaralı olsun".

Və mən də, hardasa, neçə il bundan irəli əlində bel, ayağında uzunboğaz rezin çəkmə olan Hikmətin ağac-budağı sulayan vədəsini yadıma saldım. Dedi ki, qoy gedim geyimimi dəyişim, belə yaxşı deyil. Mən də dedim ki, zəhmət adamı necədirsə, qoy elə də ekranda görünsün. Onda televiziya verilişi hazırlayırdım.

Kənd sakini Afiyəddin Hacıyev Qızıl Qışlağın tarixindən söhbət açdı. Buranın 450-500 illik yaşı olduğunu bildirdi. Bir sözlə, sakinlərlə görüşlərin, söhbətlərin məğzi, mövzusu eyni idi. Hamı onlara göstərilən dövlət qayğısından danışırdı.

Dağ kəndinə gələsən, elm, bilik, təhsil məbədgahı sayılan məktəbə baş çəkməyəsən, əlbəttə, günah olar. Məktəbin direktoru Hafiz Həziyev söhbətcildir, əsl ziyalıdır. Həmkəndlilərinin dərsə, məktəbə olan sevgisindən xeyli danışdı. Ötən tədris ilində məktəbi bitirən 7 məzundan 3-nün ali məktəbə, 3-nün isə orta ixtisas məktəbinə qəbul olunduğunu bildirdi, 25 müəllimin hamısının bu kənddən olduğunu dedi. Sahibə Seyidovanın "İlin ən yaxşı müəllimi" adına layiq görüldüyünü xüsusi qeyd elədi. Eyni zamanda kənd məktəbini bitirənlərin neçəsinin alimlik dərəcələri olduğunu vurğulamağı unutmadı. Hafiz müəllim məktəbin 8 aya tikildiyini deyəndə yadıma sovetlər dönəmindəki məktəb tikintisi düşdü. Və dəqiq xatırladım ki, əvvəla, dağ kəndində belə məktəb heç tikilməzdi. Tikilsəydi, bu keyfiyyətdə, bu gözəllikdə olmazdı. Və yenə tikilsəydi, 8 aya yox, heç 8 ilə də başa gəlməzdi. Bax budur dostumuzu da, istəməyənimizi də heyrətə salan Naxçıvan intibahı.

***Qış Günəşi dağ kəndində qısa müddətə görünür, göz açıb yumunca bu dağın dalından çıxıb o biri dağın arxasında batır. Və deyəsən, mənim də qızıl qışlaqlılarla sağollaşmaq vədəm çatır. Bir el-elat, bir kənd üçün bir neçə saatlıq görüş nədir ki? Dağ dolaylarının rahat asfalt yolu məni şəhərə gətirir və birdən güzgüdə arxa oturacağa qoyulan sellofan torba və su qabı gözümə sataşdı. Deməli, hədiyyə qoyublar. Maşının arxa oturacağına qoyulmuş torbanı açdım. Sarıyanaq, qırmızıyanaq almaların ətri salona yayıldı. 5 litrlik qabda Nəbi bulağının, yoxsa Sarı bulağın, yoxsa Çuxur bulağının suyu, bir də kiçik şüşə bərnidə bir kiloqrama qədər bal. Şəhərdə almadan kim bir diş vururdusa, deyirdi: "Bal kimidir". Sudan bir qurtum içən bəh-bəh eləyirdi: "Su deyil, baldır". Amma əsl balı heç kimə göstərmədim. Mətbəximdə saxlayıram. Ev-eşiyimə şirinlik gətirir. Hərdən bu qarlı qış günündə pəncərəni açıram. Və mənə elə gəlir ki, bu şirinlik bütün şəhərə yayılır: bu şirinlikdən hamıya pay düşür.***

**Nurəddin BABAYEV**
*Azərbaycan Respublikasının əməkdar jurnalisti*

# Teatrı həyat tərzinə çevirən aktyor...

*Teatr səhnəsi bir möcüzədir. Burda insan sirli, sehrli bir aləmə düşür: kitablardan oxuduğu qəhrəmanın canlı obrazını seyr edir, hadisələrin həyatda inikasını görür, hadisələrin canlı şahidinə, bəzənsə dolayı yolla iştirakçısına çevrilir. Amma unutmaq olmaz ki, obrazı səhnəyə gətirən, canlandıran, ona həyat verən aktyordur – səhnədə başqalaşan, obrazın daxili aləmini açan, ona can verən aktyor.*



O da aktyordur. Təkcə Naxçıvanda deyil, bütün Azərbaycanda sənətsevərlərin yaxşı tanıdığı aktyor – Xalq artisti Rövşən Hüseynov. Əminik ki, onun adını oxuyanların üzündə təbəssüm yarandı. Bu da təbiidir, çünki onu daha çox komediya aktyoru kimi tanıyırıq.

Rövşən Hüseynov 1954-cü il fevralın 6-da Naxçıvanda sənətkar ailəsində doğulub. Anası Xalq artisti Sofiya Hüseynova, atası uzun illər Naxçıvan teatrında inzibati işlərdə çalışan Maqsud Hüseynov balaca Rövşəni uşaqlıqdan sərbəst böyüdüblər. Uşaqlıq illərini teatrın səhnəsində keçirən Rövşən sonradan elə valideynləri kimi ömrünü də böyük səhnəyə bağlayır. Uşaqkən müəyyən epizodlarda çıxış eləsə də, 1968-ci ildən, yəni 14 yaşından teatrın truppasına aktyor kimi qəbul edilir. Sözsüz ki, istedadı nəzərə alınmaqla.

Azərbaycanda tanınan təcrübəli rejissorlar Baxşı Qələndərli, Vəli Babayev, Miribrahim Həmzəyev kimi sənətkarların quruluş verdikləri tamaşalarda Rövşənin özünəməxsus rollar silsiləsi başlayır. Biz onun rollarının siyahısını sadalamaq niyyətində deyilik. Bu, teatrşünasların işidir. Sadəcə, sayını deyə bilərik – 1968-ci ildə Süleyman Sani Axundovun "Laçın yuvasında" əsəri əsasında hazırlanan tamaşadan bir neçə il qabaq Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı"ndakı xalq qəhrəmanı Babək roluna qədər 150 müxtəlif xarakterli qəhrəman səhnədə Rövşən Hüseynovun ifası ilə tamaşaçıya təqdim edilib. Ən başlıcası odur ki, oynanılan rolların əksəriyyəti baş qəhrəmanlardır. Bu obrazların hər biri də özünəməxsus xarakter cizgiləri ilə yaddaqalan şəkildə və bir-birini təkrar etmədən yaradılıb. Və bu rolların əksəriyyəti komediya qəhrəmanlarıdır. Əslində, Rövşən Hüseynov çox ciddi aktyordur. Elə buna görə də onun oynadığı komik obrazlar ciddiliyi ilə seçilir. Bunu da tamaşaçı yaxşı bilir. Amma tarixi dramlar, faciələrdə yaratdığı obrazlar da onlardan geri qalmır. Hər biri özünəməxsus şəkildə aktyor ifası ilə tamaşaçının yadında qalır. Bəzən aktyorların yaradıcılığını komik və ya dramatik ampulalara bölürlər. Rövşən Hüseynovsa əsl aktyordur, yəni onun üçün əsas obrazın canlandırılması, xarakterin açılmasıdır, bir də hər şeyi olduğu kimi yaşamaq. Komediya və ya faciə isə aktyorun yaratdığı obrazın düşdüyü mühitin diktəsi ilə yaranır. Yaratdığı obrazlara görə dövlət səviyyəsində bir çox mükafatlar alıb. Ən ümdəsi isə "Xalq artisti" fəxri adına layiq görülməsidir.

Rövşən Hüseynov tərəf-müqabili ilə qarşılıqlı oyunu sevən, öz həmkarlarına səhnədə istənilən vəziyyətdə yaxşı ifa üçün şərait yaradan çox az aktyordan biridir. Elə buna görə də gənclər həvəslə onun oynadığı tamaşalarda rol almağa can atır.

Rövşən Hüseynovun üstün cəhətlərindən biri onun çox gözəl musiqi duyumunun olması, digəri isə gözəl səhnə plastikasıdır. Onun bu xüsusiyyətlərini hətta bir vaxt Xalq artistləri Afaq Bəşirqızı və mərhum Yaşar Nuri onunla Naxçıvan teatrında bir səhnəni bölüşəndən sonra səmimi şəkildə etiraf ediblər. Bütün yaxşı sənətkarlar kimi, Rövşən müəllimin də ürəyi səhnədə yaşadığı müxtəlif xarakterli obrazların faciəsinə, dramına biganə qala bilmədi. Nəticədə, ürəyindən ağır əməliyyat olundu. Həkimlər səhnədə əvvəlki çevik hərəkətlərinə qadağa qoydular. Amma taleyini teatra bağlayan insanın ürəyi səhnə ilə döyünürsə, ondan ayrıla bilərmi? Ona görə də Rövşən müəllim, son illər özünü rejissor kimi sınaqdan keçirib. Nəticədə, Həsən Elsevərin "Koroğlu nəsli", İsgəndər Coşqunun "Ana laylası" əsərləri əsasında uşaq və yeniyetmələr üçün hazırlanan maraqlı, dinamik tamaşalar yarandı. Müzəffər Nəsirlinin "Qönçəbəyim nəğməsi", İlyas Əfəndiyevin "Hökmdar və qızı", Mirzə Fətəli Axundzadənin "Xırs quldurbasan", İslam Səfərlinin "Göz həkimi" əsərləri onun rejissor fantaziyasından keçərək tamaşaçıya təqdim edilib. Həyatsa davam edir.

*İndi arxaya dönüb baxanda 60 yaşın 45 ilinin sənətə, teatra həsr edildiyini görürsən. Bu isə artıq bir faktı sübut edir – Xalq artisti Rövşən Hüseynov üçün teatr bir həyat, yaşam tərzidir... Tamaşaçı ürəyindən isə bir söz qopur, yəqin ki: 60 yaşın mübarək, həmişəcavan sənətkar!*

**Səməd CANBAXŞIYEV**

## Naxçıvan Muxtar Respublikası üzrə 2014-cü ilin yanvar ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 753270 | 75327 | 75611 | 100,4 |
| 2. | Sədərək rayonu | 336657 | 33666 | 33756 | 100,3 |
| 3. | Şərur rayonu | 2891205 | 289121 | 289720 | 100,2 |
| 4. | Naxçıvan şəhəri | 3143439 | 314344 | 314344 | 100,0 |
| 5. | Babək rayonu | 2593450 | 259345 | 259345 | 100,0 |
| 6. | Ordubad rayonu | 1547254 | 154725 | 154725 | 100,0 |
| 7. | Culfa rayonu | 1811663 | 181166 | 181166 | 100,0 |
| 8. | Kəngərli rayonu | 949833 | 94983 | 94983 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 10289217 | 1028170 | 1028176 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **24315988** | **2430847** | **2431826** | **100,0** |

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2014-cü ilin yanvar ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi (%) |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1457 | 87,4 | 87,8 | 100,5 |
| 2. | Culfa rayonu | 1157 | 69,4 | 69,7 | 100,4 |
| 3. | Şahbuz rayonu | 432 | 25,9 | 26,0 | 100,4 |
| 4. | Kəngərli rayonu | 650 | 39,0 | 39,1 | 100,3 |
| 5. | Şərur rayonu | 2082 | 124,9 | 125,0 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 5083 | 305,0 | 305,0 | 100,0 |
| 7. | Babək rayonu | 2235 | 134,1 | 134,1 | 100,0 |
| 8. | Sədərək rayonu | 335 | 20,1 | 20,1 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 19761 | 1185,7 | 1050,2 | 88,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **33192** | **1991,5** | **1857,0** | **93,2** |

***Qeyd:*** Yanvar ayında texniki itki nəzərə alınmaqla daxil olan 33 milyon 192 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 991 min 500 manat olmuş, cəmi 1 milyon 857 min manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 93,2 faizini təşkil edir.

***Futbol üzrə I divizionun ilk dövrəsini lider kimi başa vuran "Araz-Naxçıvan" futbol komandası təlim-məşq toplanışını Bakıda keçirir. Yanvarın 5-də "Neftçi"nin keçmiş bazasında toplanan qırmızı-ağlar ilk dəfə baş məşqçi Əsgər Abdullayevin rəhbərliyi ilə geridə qalan 15 turu müzakirə edib. Baş məşqçi ilk dövrədə buraxılan səhvlərin təkrarlanmaması üçün yetirmələrinə öz tapşırıqlarını verib və liderliyi qorumağın lider olmaqdan çətin olduğunu vurğulayıb.***

# "Araz-Naxçıvan" hazırlıqlarını davam etdirir

"Araz-Naxçıvan"ın toplaşdığı ilk məşqdə bəzi futbolçuların olmadığı diqqətdən qaçmayıb. Belə ki, ötən dövrəni daha çox ehtiyat oyunçular skamyasında keçirən Ozal Əbiyev, Nicat Əliyev, Rəşad Hacızadə, Elnur Soltanlı və Elvin Cəbrayıllı qarşılıqlı razılaşma əsasında komandadan ayrılıblar. İlk bir həftəni seleksiyaya həsr edən baş məşqçi yeni gələn oyunçuları sınaqdan keçirib. Onların əksəriyyəti Ə.Abdullayevin etimadını qazana bilməyib və baş məşqçi onları komandada görmək istəmədiyini bildirib.

Bir həftədən sonra toplu məşqlərə başlayan "Araz-Naxçıvan" yanvarın 15-də yoxlama görüşü keçirib. Rəqib Premyer-Liqa təmsilçisi "Sumqayıt" idi. Daha çox gəncləri oynadan və heyəti müəyyənləşdirməyə çalışan baş məşqçi ikinci hissədə əsas heyəti meydana buraxıb. Naxçıvan təmsilçisi son 10 dəqiqədə təzyiqi artırıb və David Canıyevin vurduğu yeganə qol sayəsində meydanı qalib kimi tərk edib. Bu görüşdən sonra baş məşqçi komandanın daha bir üzvünü – Rəhman Musayevi komandadan göndərib. Qələbənin ardınca yetirmələrinə istirahət verməyən Əsgər Abdullayev gündəlik məşqlərin sayını ikiyə yüksəldib. Səhər və axşam məşq edən futbolçular həm də fiziki gücə üstünlük verməklə, ikinci dövrənin hazırlıqlarını davam etdirirlər.

Komandamız fevralın 9-na kimi təlim-məşq toplanışını Bakıda davam etdirəcək. Azərbaycan I divizionunun oyunları məhz bu tarixdə başlandığından, həmçinin ilk oyun paytaxtda olduğundan qırmızı-ağlar bu tarixə kimi Bakıda qalacaqlar.

Qeyd edək ki, komandamız I divizionun ikinci dövrəsinin ilk matçını Bakıda "Bakılı"ya qarşı keçirəcək. Oyunun başlama saatı hələ dəqiqləşməsə də, fevralın 9-da oynanılacağı dəqiqdir.

**✍ Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti

*2014-cü il üçün kotirovka elan edir*

*1.Dəftərxana ləvazimatlarının satın alınması*

*2.Təsərrüfat mallarının satın alınması*

Kotirovka 6 fevral 2014-cü il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 7 fevral 2014-cü il tarixdə saat $11^{00}$-də Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Orxan Hüseynov***
***Telefon: 545-05-09***

### İtmişdir

Şərur rayonunun Qarxun kənd sakini Bağırov Bahaddin Cilovxan oğlunun adına verilmiş JN-533 nömrəli torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin kollektivi həkim Elşad Cəfərova, atası **FƏXRƏDDİNİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları iş yoldaşları İlham Cəfərova, əmisi **FƏXRƏDDİN CƏFƏROVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Tibb Kollecinin direktoru İlhamə Mustafayeva və kollecin kollektivi iş yoldaşları Elşad Cəfərova, atası **FƏXRƏDDİNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutu və Batabat Astrofizika Rəsədxanasının kollektivi iş yoldaşları Nəzakət İsmayılovaya, bacısı **TAMELLA XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 133